Zahidə Tofiq qızı Rzayeva
*Bakı Dövlət Universiteti*
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
*zahidarzayeva@bsu.edu.az*
*Orcid id: 0000-0003-3696-6950*

*UDC 027.7*

# İNFORMASİYA-KOMMUNİKASİYA SİSTEMİNDƏ ELEKTRON KATALOQLARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə:*** *Kitabxana kataloqu hər bir kitabxananın ədəbiyyat fondunun məzmununu üzə çıxarır, oxuculara xidmət prosesində istiqamət verir. O, oxuculara xidmət və bütün digər kitabxana fəaliyyətləri üçün əsasdır.*

*M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası dünya bilik və məlumatlarına çıxışı təmin etmək, qlobal şəbəkə vasitəsilə oxucuları dünya ilə tanış etmək üçün elektron məlumat bazalarının yaradılması istiqamətində mühüm işlər görür.*

***Açar sözlər:*** *kitabxana-informasiya fəaliyyəti, informasiya-kommunikasiya texnologiyaları, kitabxana-informasiya xidməti, Azərbaycan Milli Kitabxanası, elektron kitabxana, elektron kataloq.*

**Zahida Tofig gizi Rzayeva**

## Importance of using electronic catalogs in the information and communication system

***Abstract.*** *It is known that the library catalog reveals the content of the literature fund of each library and guides readers in the service process. This is the basis for the service of readers and all other activities of the library.*

*Azerbaijan National Library named after M.F.Akhundzade has carried out important works in the direction of creating electronic databases to provide access to world knowledge and information, to provide information about the library's rich book fund, which is a treasure of national wealth, to the readers of the world through the global network.*

***Key words:*** *library and information activities, information and communication technologies, library and information services, Azerbaijan National Library, Electronic Library, electronic catalog.*





**Захида Тофик кызы Рзаева**

## Важность применения электронных каталогов в информационно-коммуникационной системе

***Резюме:*** *Известно, что библиотечный каталог раскрывает содержание литературного фонда каждой библиотеки и ориентирует читателей в процессе обслуживания. Это основа для обслуживания читателей и всей другой деятельности библиотеки.*

*Азербайджанская национальная библиотека имени М.Ф.Ахундзаде провела важные работы в направлении создания электронных баз данных для обеспечения доступа к мировым знаниям и информации, предоставления читателям мир через глобальную сеть.*

***Ключевые слова:*** *библиотечно-информационная деятельность, информационно-коммуникационные технологии, библиотечно-информационные услуги, Азербайджанская национальная библиотека, электронная библиотека, электронный каталог.*

Hazırda yeni nəsil kitabxanalar həm ənənəvi, həm də qeyri-ənənəvi altsistemlərdən ibarət mürəkkəb informasiya sistemi kimi fəaliyyət göstərir. Yeni informasiya sistemlərində elektron kataloq və elektron kitabxana mühüm yer tutur və onların yaradılması kitabxana işinin avtomatlaşdırılmasında prioritet hesab olunur.

Azərbaycan cəmiyyəti üçün də müasir dövr informasiya paradiqmaları sahəsində yeni prioritetlər sisteminə daxil olması ilə xarakterizə olunur. Başqa sözlə, informasiya cəmiyyətinin təşkili prosesi tədricən çevrilir və biliklər cəmiyyətinin yaradılması prosesinə keçir. Bu baxımdan geniş oxucu kütləsinin çoxsaylı sənəd massivinə çıxışının təşkili ilə kitabxanalar informasiyanı özündə cəmləşdirən mərkəzlər kimi xüsusi status qazanmağa başlamışdır.

Müasir dünyada gedən qlobal proseslər cəmiyyətin həyatına birbaşa təsir göstərir, ictimai həyatın bütün sahələrində müxtəlif növ informasiyaya tələbatı köklü şəkildə dəyişir. Bu prosesi fərqləndirən əsas cəhət isə cəmiyyətin yaşaması üçün informasiyanın fundamental faktora çevrilməsi, onun nüfuz dairəsinin getdikcə artması ilə xarakterizə olunur.

Qarşıdakı illərdə praktiki dəyərə malik məlumatları özündə əks etdirən biliklərə yiyələnmək istəyi oxucuları kitabxanalara aparacaqdır. Tədqiqatçıların fikrincə, cəmiyyətin inkişafında bu mərhələni postindustrial və ya informasiya mərhələsi adlandırmaq olar ki, onun da mahiyyəti informasiya-kommunikasiya texnologiyaları əsasında informasiya və biliklərin istehsalıdır. Belə cəmiyyətdə kitabxanalar təkcə insanlara "informasiya dünyası"na səyahətə çıxmaq üçün bələdçilik etmir, həm də əslində müasir cəmiyyətin arzuladığı biliklərin mühafizəçiləri kimi çıxış edir.

Kitabxananın bütün bu və bir çox digər xüsusiyyətləri onun informasiya ehtiyatlarının, xüsusən də elektron kataloqun formalaşmasına bilavasitə təsir

etmişdir. elektron kataloqun kitabxananın informasiya mühitinin təşkilində rolu bundan sonra daha düzgün qiymətləndirilməlidir.

İndi aydın olur ki, kitabxanalarda toplanıb saxlanılan informasiya resursları onların təşkili və əlçatanlığı üçün yeni formalar tələb edir. Məhz bundan sonra informasiya biliyə çevrilə, kitabxana ictimai şüurda yeni status qazana bilər.

Hazırda yeni nəsil kitabxanalar həm ənənəvi, həm də qeyri-ənənəvi altsistemlərdən ibarət olan mürəkkəb informasiya sistemi kimi fəaliyyət göstərir. Yeni informasiya sistemləri içərisində elektron kataloq və elektron kitabxana vacib yer tutur və onların yaradılması kitabxana işinin avtomatlaşdırılmasının prioritet istiqaməti hesab edilir.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası dünya biliklərinə və informasiyalarına girişi təmin etmək, dünya oxucularına qlobal şəbəkə vasitəsilə kitabxananın milli sərvət xəzinəsi olan zəngin kitab fondu haqqında məlumatları çatdırmaq üçün elektron məlumat bazalarının yaradılması istiqamətində mühüm işlər həyata keçirmişdir. Belə ki, 2000-ci ildə Milli Kitabxana ABŞ səfirliyinin və Avrasiya fondunun maliyyə dəstəyi ilə ABŞ-ın VTLS korporasiyasının xüsusi kitabxanalar üçün işləyib hazırladığı Virtua proqramını layihə çərçivəsində əldə etmişdir. Bununla da respublikamızda ilk dəfə olaraq avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqi istiqamətində ilk adddımlar atılmağa başlamışdır.

Qeyd edək ki, VTLS Inc. 44 ölkədə 1900-dən çox kitabxanadan ibarət müxtəlif müştəri bazasına kitabxana avtomatlaşdırma proqramı və xidmətləri təqdim edən qlobal şirkət olmuşdur. Kommersiya məqsədi daşıyan şirkət 1985-ci ildə şirkətin prezidenti və baş icraçı direktoru olmuş Dr. Vinod Çaçra tərəfindən Amerika Birləşmiş Ştatlarının Virciniya ştatında yaradılmışdır. VTLS "Verginia Technical Libraiy System" (Virciniya Texniki Kitabxana Sistemi) kimi Virciniyadakı Nyuman Texnologiya Kitabxanası üçün avtomatlaşdırılmış dövriyyə və kataloqlaşdırma sistemi kimi 1975-ci ildə meydana gəlmişdir. VTLS-in ABŞ-da Virciniya ştatının Bleksberq şəhərində yerləşən qərargahından başqa, Avstraliya, Braziliya, Hindistan, Malayziya və İspaniyada beş beynəlxalq ofisi təşkil edilmişdi. VTLS uzun illər ərzində kitabxana sənayesində ISO 9001:2008 keyfiyyət sertifikatına malik bir neçə şirkətdən biri idi. Şirkət 2014-cü ildə Innovative Interfaces tərəfindən alınmışdır. Innovative Interfaces, Inc. kitabxana idarəçiliyi üçün inteqrasiya olunmuş sistemlər üzrə ixtisaslaşmış proqram təminatı şirkətidir və ABŞ-ın Kaliforniya ştatının Berkli şəhərində fəaliyyət göstərir [5].

Beləliklə, Azərbaycan Milli Kitabxanasında VTLS Virtua kitabxana proseslərinin avtomatlaşdırılması, oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanılmasına şərait yaradan və onların təkrar istifadəsinə imkan verən avtomatlaşdırılmış sistem tətbiq olunur. Xatırladaq ki, dünyanın ən zəngin və böyük kitabxanalarında həmin məsələlər daha çox məhz bu sistem vasitəsilə həyata keçirilir.





Uzun müddət hazırlıq işləri aparıldıqdan, beynəlxalq treninqlər keçirildikdən və lazımi mütəxəssislərin hazırlanması prosesi başa çatdıqdan sonra 2003-cü ildə elektron kataloqun tərtibi işlərinə başlanılmışdır. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir.

Virtua isə VTLS, Inc. tərəfindən istehsal edilən və 2014-cü ildə Innovative Interfeys şirkəti tərəfindən alınan İnteqrasiya edilmiş Kitabxana Sistemidir. Sonradan Innovative də ProQuest şirkəti tərəfindən satın alındı. Innovative/PQ vtls-Virtua məhsullarına aiddir, lakin ona Virtua, bəzən də Virtua (VTLS) kimi istinad edilir [5].

2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir. Lakin bütün bunlar külli miqdarda vəsait tələb etdiyindən, işlər müvəqqəti olaraq dayandırılmış, hazırlıq və təcrübi işlər aparılmışdır.

Milli Kitabxanada əsası 2002-ci ildə qoyulmuş Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi (Elektron kitabxana) 2006-cı ildən geniş fəaliyyətə başlamışdır.

Azərbaycan Kitabxana Ensiklopediyasında "Elektron Kitabxana" anlayışı bu cür izah olunur: "Elektron Kitabxana - informasiya cəmiyyətinin baza prinsiplərinə əsaslanaraq, informasiyanın əmtəəyə çevrilməsinə (maddiləşməsinə), informasiya bazarının formalaşmasına, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir. Elektron kitabxana oxuculara informasiya xidmətinin kompüterləşmiş növüdür. Uzaq məsafədən oxuculara daha dolğun informasiya xidmətigöstərərək bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda göstərildiyi halda, elektron kitabxana sutkanın iyirmi dörd saatı ərzində fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni vaxt da xidmət edə bilir. Elektron Kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malikdir. İnformasiya ehtiyatı rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir. Bu sənədlərin bir qismi kitabxananın mülkiyyəti olub, mərkəzləşmiş formada elek tron kitabxananın Web serverlərində toplanır. Uzaq məsafədə yerləşən ehtiyatlara kitabxana tərəfindən seçilmiş, dəqiqliyinə və etibarlılığına zəmanət verilən “istifadə üçün açıq” olan internet ehtiyatları aiddir" [6, s. 212].

Elektron Kitabxananın yaradılmasında məqsəd Mili Kitabxananın fondunun, o cümlədən nadir və qiymətli kitabların, hər hansı bir səbəbdən istifadəyə verilməsi məhdud olan və ya heç mümkün olmayan, oxucuların tapa bilmədiyi və ya çox çətin tapdığı ədəbiyyatın mühafizəsi, bu sahədə mövcud olan informasiya qıtlığını aradan qaldırmaq üçün həmin nəşrlərin elektron versiyasının hazırlanmasını, Azərbaycan elminin nailiyyətlərinin İnternet vasitəsilə təbliği və informasiya təminatını təmin etməkdir. Elektron Kitabxana

elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət edir [7, s.18].

2006-cı ilin mayında Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur. Beynəlxalq ekspertlərin, respublika kitabxana ictimaiyyətinin və mətbuat nümayəndələrinin iştirakı ilə gerçəkləşdirilən bu tədbir ölkəmizin kitabxana işi tarixinə ilk kitabxana saytı və elektron kataloqun təqdimatı kimi yazılmışdır.

Həmin vaxtdan Milli Kitabxananın saytı vasitəsilə bir sıra beynəlxalq məlumat bazalarında, o cümlədən ABŞ-ın Konqres Kitabxanasının və Rusiyanın Milli Dövlət Kitabxanasının elektron məlumat bazalarında birbaşa axtarış aparmaq imkanı əldə edilmişdir.

Milli Kitabxanada milli ədəbiyyatın elektron kataloqunun yaradılması işinə 2005-ci ildə başlanılmışdır. 2006-cı ilin fevral ayında isə Elektron kataloqun inkişafı şöbəsi təşkil edilmişdir. Şöbə kitabxanaya Azərbaycan və rus dillərində daxil olan olan cari ədəbiyyatın, bu şöbədə hazırlanan tammətnli sənədlərin və elektron daşıyıcıların, Not nəşrləri və səsyazmaları şöbəsindən alınan əlyazma notların, Azərbaycan ədəbiyyatının arxivi şöbəsindəki ədəbiyyatın, eləcə də kitabxananın fondunda saxlanılan ədəbiyyatın maşınla oxuma formasında elektron kataloqunun yaradılması işini həyata keçirir.

Şöbənin vəzifələrinə ədəbiyyatın biblioqrafik yazılarının tərtib edilməsi, redaktəsi, məlumat bazasına daxil edilməsi, biblioqrafik yazılarda predmet rubrikalarının redaktəsi, məlumat bazasında avtoreferat və dissertasiyaların biblioqrafik yazılarının redaktəsi, həmçinin ədəbiyyata KBT cədvəlləri üzrə indeks və Azərbaycan Milli Kitabxanasının predmet rubrikalarının verilməsi, fərdi müəllif adlarının Nüfuzlu / normativ fayllarının yaradılması və redaktə edilməsi və s. kimi işlər daxildir.

Şöbə bir neçə istiqamətdə ədəbiyyat növlərini qəbul edərək biblioqrafik yazıları tərtib edib, məlumat bazasına daxil edir. Buraya monoqrafiyalar, monoqrafik seriyalar, dissertasiyalar, dissertasiyaların avtoreferatları, kartoqrafiya materialları, not-musiqi nəşrləri, elektron resurslar və s. daxildir.

Şöbənin fəaliyyətinin əsas istiqamətləri olduqca genişdir. Şöbə elektron kataloqda biblioqrafik yazıları VTLS sistemində VİRTUA proqram təminatında, MARC 21 formatında təqdim edir. Məlumatlar bazası yaradıldıqda ən yeni biblioqrafik nəşrlərdən istifadə olunur ki, bu da təsvirin tam dolğun şəkildə aparılmasına imkan verir. Biblioqrafik yazılar AACR 2-yə uyğun 2013-cü ildə təsdiq olunmuş Milli Standart olan vahid biblioqrafik təsvir qaydası əsasında tərtib olunur.

Milli Kitabxanada elektron kataloqun məlumat bazasına ədəbiyyat üç mənbədən daxil olur: yeni ədəbiyyat; arxiv şöbəsinə toplanan və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat; oxucular tərəfindən qaytarılan ədəbiyyat.





Milli Kitabxananın elektron kataloqundan istifadə etmək üçün www.anl.az saytına daxil olaraq kitabxananın şöbələrinin adları əks olunan siyahıdan "Elektron kataloq və elektron kitabxana" sətrinin üzərində düyməni sıxmaqla elektron kataloqa daxil olmaq mümkündür. Elektron kataloqdan sadə axtarış, kombinasiya edilmiş axtarış, başlıqların açar sözü üzrə axtarış, xarici məlumat bazalarıdan axtarış aparmaq olar.

Virtua avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında oxuculara operativ məlumatın verilməsi məsələsini də həll etmişdir. Bu gün külli miqdarda vəsait sərf edərək yeni ədəbiyyat bülletenləri çap etməyə artıq ehtiyac yoxdur. Çünki kitabxanaya müxtəlif mənbələrdən daxil olan bütün ədəbiyyat Milli Kitabxananın saytındakı "Yeni ədəbiyyat" bölməsində əksini tapıb və oxucular həmin düyməni basmaqla hər gün kitabxanaya daxil olan yeni ədəbiyyat barədə məlumat ala bilirlər.

Hazırda yeni informasiya texnologiyalarının, o cümlədən elektron kataloqlaşdırmanın kitabxanaların fəaliyyətində hərtərəfli nüfuz etməsi və bu proseslərin mürəkkəb texniki-texnoloji kompleks olması həmin sahədə mütəxəssis kadr hazırlığına ciddi ehtiyac yaranmasına səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, republikamızda fəaliyyət göstərən iri kitabxanaların xeyli hissəsində müasir informasiya texnologiyalarına əsaslanan İnternet resurs mərkəzləri – lokal və qlobal elektron kataloq sistemləri təşkil edilmişdir [5].

İnformasiyanın sürətlə artması və köhnəlməsi coğrafi uzaqlıqdan asılı olmayaraq oxuculara operativ xidmət göstərilməsini diqtə etdiyindən ənənəvi kitabxana kataloqlarını bu gün elektron kataloq əvəz edir. Elektron kataloq oxuculara şəbəkə vasitəsilə ədəbiyyat fondunun tərkibi ilə tanış olmağı, öz sorğularına kitabxanaçı-biblioqrafın köməyi olmadan uzaq məsafədən operativ cavab almağı, ədəbiyyatı uzaq məsafədən sifariş verməyi təmin edir.

Elektron kataloq kitabxana fondunun real uçotunu, oxucuların statistikasını, maraq dairəsinin müəyyən edilməsinə, kitabın hərəkətinin izlənilməsinə, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komp-lektləşdirilməsinə və yeniləşdirilməsinə, oxuculara müasir səviyyədə On-line olaraq xidmət təşkil etməyə imkan verir. Məhz elektron kataloq əlaqədar kitabxananın nəinki yerli oxucularına, həm də uzaq məsafədə yerləşən istifadəçilərə kitabxana-informasiya xidməti göstərmək imkanına malikdir. Elektron kataloq ənənəvi kataloqdan fərqli olaraq təkcə biblioqrafik məlumatları deyil, digər elektron informasiyaları sistemli şəkildə özündə saxlayır, onların operativ və on-line axtarışını təmin edir. Elektron kataloq vasitəsilə kitabxana fondunu əks etdirən biblioqrafik informasiya daha ehtiyatlı qorunur.

Elektron kataloqun üstünlüyündən biri də avtoritet yazılardan istifadəni təmin etməsidir. Bu gün rəqəmli texnologiyanın inkişafı kağız üzərində informasiyanın elektron formaya çevrilməsinə imkan verdiyindən elektron kataloqdan istifadə edən oxucu On-line olaraq öz tələbatına uyğun ədəbiyyatın kitabxanada olması haqqında biblioqrafik məlumat almaqla yanaşı onun elektron versiyasını da əldə edə bilər [6, s.45].

Elektron kataloqun informasiya resurslarına istifadəçinin asan və rahat çıxışını, yəni axtarış metodlarını və rejimlərini rahat təmin edən vasitələrin kompleksinə istifadəçi interfeysi deyilir. Digər bir tədqiqatçı isə istifadəçi interfeysinin informasiya resursları ilə əlaqəsini təmin edən proqram təminatının və avadanlıqlarının təmini kimi səciyyələndirilmişdir. Elektron kataloqun istifadəçi interfeysinin yaradılması bir tərəfdən mütaliə psixologiyası, istifadəçinin informasiya axtarışında icra etdiyi əməliyyatlar, digər tərəfdən isə proqram və texniki vasitələrin "insan-maşın" əlaqələrinə uyğunlaşma səviyəsi ilə bağlıdır. İnterfeysin əyaniliyi də vacib cəhətdir. Buna görə də istifadəçinin elektron kataloqlarda axtarış variantların və texnologiyaların əyani qrafiki simvol və sxemlərlə göstərilir.

Beləliklə, qarşıdakı illərdə praktik dəyərə malik məlumatları özündə əks etdirən biliklərə yiyələnmək istəyi oxucuları kitabxanalara aparacaqdır. Tədqiqatçıların fikrincə, cəmiyyətin inkişafında bu mərhələni postindustrial və ya informasiya mərhələsi adlandırmaq olar ki, onun da mahiyyəti informasiya-kommunikasiya texnologiyaları əsasında informasiya və biliklərin istehsalıdır. Bu zaman kitabxanalar insanlara təkcə "informasiya dünyası"na səyahətə çıxmaq üçün bələdçilik etmir, həm də əslində müasir cəmiyyətin arzuladığı biliklərin mühafizəçiləri kimi çıxış edir.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı: 20 sentyabr 2016-cı il / http://www.e-qanun.az/framework/33717.*

*2. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. - Bakı, 1998. - 17 s.*

*3. Azərbaycan Kitabxana Ensiklopediyası / Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundzadə adına Milli Kitabxana. - Bakı, 2015. - 632 s.*

*4. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu (1998) / https://e-qanun.az/framework/5041*

*5. Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası / https://www.millikitabxana.az/*

*6. Məmmədova, Sevda. M.F.Axundov adına Milli Kitabxanada oxucuların informasiya tələbatının ödənilməsində elektron kataloqun və elektron kitabxananın rolu // Kitabxanaşüaslıq və informasiya: Elmi-nəzəri və təcrübi jurnal. - Bakı: 2011, №1, № 2 (5), s.7-16.*

*7. Tuliyeva, İradə. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında elektron resursların yaradılması // Müasir informasiya məkanı və kitabxanalar: Respublika elmi konfransının tezis və məruzələri / Bakı Dövlət Universiteti. - Bakı, 2010, s.15-20.*

*8.https://www.dissercat.com/content/rol-elektronnogo-kataloga-v-formirovanii-informatsionnoi-sredy-dlya-vnov-sozdavaemykh-biblio*